# Elnarə Akimovanın yeni kitabı




**Tənqidçi-ədəbiyyatşünas Elnarə Akimovanın "Elm və təhsil" nəşriyyatında "Düşüncə zamanı - ədəbi tənqid diskurs kimi" adlı yeni kitabı nəşr olunub. 600 səhifədən ibarət kitabda Elnarə Akimovanın 2015-2019-cu illər arasında "Ədəbiyyat qəzeti"ndə çap olunan məqalələrinin bir qismi əksini tapıb.**

Buradakı mətnlər "Nəsr diskurs kimi", "Poema diskurs kimi", "XX əsr şeiri - zamana baxış kontekstində", "Düşüncə zamanı", "Ədəbiyyat elm kimi", "Mənəvi diskurs", "Analiz yazıları - problemlər, mülahizələr", "Uşaq ədəbiyyatı: tarixdən çağdaşlığa" kimi bölümlərdə sistemləşdirilərək bütünlükdə müstəqillik dövrü Azərbaycan ədəbiyyatının və tənqidinin mənzərəsini aşkara çıxarır. Kitabda roman və hekayə janrında meydana qoyulan nümunələrin üslubi xüsusiyyətləri, əsr səciyyəsi tədqiq olunur, poetikası elmi-nəzəri analizin predmetinə çevrilir.

Kitabın elmi redaktoru və ön sözün müəllifi "Ədəbiyyat qəzeti"nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Azər Turan, rəyçilər akademik İsa Həbibbəyli və fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdidir.

Kaspi 2019.- 21-23 sentyabr.- S.9.